DOI: https://doi.org/10.36719/2706-6185/36/11-15

**Yeganə Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
yeganememmedova.doc@gmail.com

# MƏKTƏBƏHAZIRLIQ DÖVRÜNDƏ SAVAD TƏLİMİ ÜZRƏ MƏŞĞƏLƏLƏRİN TƏŞKİLİ

**Xülasə**

Müstəqil Azərbaycan Respublikasının gələcəyi olan gənc nəslin tərbiyəsinin kiçik yaşlardan düzgün təşkilini həyata keçirmək məktəbəqədər tərbiyə müəssisələrinin qarşısında duran ən ümdə vəzifələrdən biridir. Bu dövrdə uşaqların ana dilinə yiyələnməsi təlim-tərbiyə işinin düzgün həyata keçirilməsindən çox asılıdır. Ana dili tədrisi məktəbəqədər tərbiyə müəssisələrində böyük pedaqoji əhəmiyyəti olan məsələdir. Uşaqların təfəkkür səviyyəsini müəyyənləşdirməkdə və onun inkişaf yolunu təmin etməkdə ana dili tədrisinin ümumi təlim sistemində rolu son dərəcə böyükdür. Altıyaşlıların təliminin müvəffəqiyyətli və cəlbedici olması üçün düşündürücü və inkişafetdirici oyunlardan istifadə olunmalıdır. Uşaqlar oyun zamanı sərbəst olur, yeniliyi asanlıqla qavraya bilirlər. Oyun zamanı uşağın təfəkkürü, yaddaşı, müşahidəçilik qabiliyyəti, diqqəti daha asanlıqla inkişaf edir.

Tərbiyəçi hər bir məşğələyə vaxtında hazırlaşmalı, üzərində iş aparılacaq materialı diqqətlə seçməli, məşğələdə istifadə ediləcək iş formalarını, metod və priyomları müəyyənləşdirməlidir. Nitq inkişafı üzrə iş uşaqların fiziki imkanlarına müvafiq olmaqla onların fikir və fəaliyyətini hərəkətə gətirməli, təfəkkürünü, yaddaşını inkişaf etdirməli, müqayisəetmə, ümumiləşdirmə, əqli nəticəyə gəlmə bacarıqlarına yiyələnməsini təmin etməlidir. Bütün bunlara nail olmaq üçün nitq inkişafı üzrə iş birtərəfli deyil, kompleks şəkildə aparılmalıdır.

***Açar sözlər:*** *məktəbəhazırlıq, savad təlimi, oxu, yazı, nitq inkişafı*

**Yegana Mammadova**
Azerbaijan State Pedagogical University
Doctor of Philosophy in Pedagogy
yeganememmedova.doc@gmail.com

## Organization of literacy training during pre-school

**Abstract**

It is one of the most important tasks of pre-school educational institutions to implement the proper organization of the education of the young generation, who are the future of the independent Republic of Azerbaijan, from a young age. During this period, children's acquisition of their mother tongue is highly dependent on the correct implementation of training and upbringing work. Mother tongue teaching is a matter of great pedagogical importance in preschool educational institutions. The role of mother tongue teaching in the general education system is extremely important in determining the level of thinking of children and ensuring its development path. In order for the training of six-year-olds to be successful and attractive, thought-provoking and developing games should be used. Children are free during the game, they can easily grasp the novelty. During the game, the child's thinking, memory, ability to observe, and attention develop more easily.

The educator should prepare for each exercise on time, carefully select the material to be worked on, determine the work forms, methods and principles to be used in the exercise. Work on speech development should be relevant to children's physical capabilities and should stimulate their thoughts and activities, develop their thinking, memory, and ensure that they acquire the skills of

comparison, generalization, and mental conclusion. In order to achieve all this, the work on speech development should be done comprehensively, not unilaterally.

***Keywords:*** *school preparation, literacy training, read, writing, speech development*

## Giriş

Müstəqil Azərbaycan Respublikasının gələcəyi olan gənc nəslin tərbiyəsinin kiçik yaşlardan düzgün təşkilini həyata keçirmək məktəbəqədər tərbiyə müəssisələrinin qarşısında duran ən ümdə vəzifələrdən biridir. Bu dövrdə uşaqların ana dilinə yiyələnməsi təlim-tərbiyə işinin düzgün həyata keçirilməsindən çox asılıdır. Uşaqlara ana dilinin zənginliklərindən istifadə etməyi öyrətmək təlimin bütün mərhələlərində həyata keçirilməlidir. Məşhur rus pedaqoqu K. D. Uşinski qeyd etmişdir ki, «ana dili hər bir əqli inkişafın və bilik xəzinəsinin əsasıdır. Uşaq ana dilini öyrənərkən yalnız şərti səsləri öyrənmir, eyni zamanda ana dilinin doğma döşündən mənəvi həyat və qüvvət içir. Ana dili təbiəti uşaqlara heç bir tərbiyəçinin izah edə bilmədiyi bir şəkildə izah edir» (Kərimov, 1997: 13). Çünki nitqi normal inkişaf etməyən uşağın ümumi inkişafından, xüsusilə təfəkkürünün inkişafından söz açmaq olmaz.

Ana dili tədrisi məktəbəqədər tərbiyə müəssisələrində böyük pedaqoji əhəmiyyəti olan məsələdir. Uşaqların təfəkkür səviyyəsini müəyyənləşdirməkdə və onun inkişaf yolunu təmin etməkdə ana dili tədrisinin ümumi təlim sistemində rolu son dərəcə böyükdür. Ana dili məşğələlərində uşaqlar biliklər əsasında fikir mübadiləsi aparır, öz fikirlərini düzgün, aydın, səlis ifadə etmək üçün müvafiq sözlər axtarır, tapdıqları sözləri fəal lüğətlərində işlətməyə çalışırlar. Bu məqsədlə tərbiyəçilər səylə çalışmalı, məşğələlərdə nitq inkişafının müxtəlif cəhətlərini – söz yaradıcılığını, nitqin qrammatik cəhətini və rabitəli nitqin qarşılıqlı inkişafının əlaqələndirilməsini təmin etməlidirlər.

Hazırlıq qrupunda uşaqların tədris fəaliyyəti, plan üzrə hərəkət etmək, əqli tapşırığı müstəqil yerinə yetirmək, tərbiyəçini dinləməyi bacarmaq fəaliyyəti formalaşır. Məktəbə gələrkən uşaqlar müşahidə aparmağı, müqayisə etməyi, sadə səbəb-nəticə əlaqələrini başa düşməyi bacarmalı, təbiət hadisələri, insanlar, onların əməyi, qarşılıqlı əlaqələri haqqında konkret məlumatlara yiyələnməlidirlər.

Məktəbəqədər müəssisələrdə nitq inkişafı geniş, əhatəli olmaqla, savad təliminə hazırlıq məşğələlərini də əhatə edir. Dil açdıqları dövrdən körpələrdə nitqin səs mədəniyyəti, nitq səslərini düzgün tələffüz etmək üzrə çalışmalar, uşaqların lüğət ehtiyatının zənginləşdirilməsi, cümlənin qurulması üzrə işlər, nəticə etibarilə savad təliminə xidmət edir (Kərimov, 2002: 32).

Savad anlayışı insanın oxumaq və yazmaq üzrə ilkin vərdişlərə yiyələnməsini nəzərdə tutur. Məlumdur ki, uşaq bir yaşından danışmağa başladığı və şifahi nitqə yiyələndiyi halda, yazılı nitqə ən tezi beş ildən sonra yiyələnir. Uşağın ilkin oxu texnikasına yiyələnməsinin əsasında onun şifahi nitq sahəsində qazandığı vərdişlər durur. O, böyük hərflərin çap şəkli ilə tanış olduqdan sonra asanlıqla oxu texnikasına yiyələnir. Həmin hərflərin yazılması, onların bitişdirilməsi üzrə vərdişlərə yiyələnmək isə çətin proses olub, nisbətən uzun yol tələb edir.

Uşağın savad təliminə hazırlanmasının əsasında nitqin səs mədəniyyətinin düzgün təşkili durur. Məktəbə gedənədək uşaq fonematik eşitmə bacarığına yiyələnməli, dilimizin bütün səslərini aydın tələffüz etməyi, sözdə səslərlə hərflərin sayını və sırasını müəyyənləşdirməyi, bir səsə görə fərqlənən sözləri tapmağı bacarmalıdır. Prof. Y. Ş. Kərimov bu haqda yazır: «Səs mədəniyyətinə səslənən nitqi xarakterizə edən xüsusi tələffüz keyfiyyətləri (səs tələffüzü, diksiya və s.), səs ifadəliliyinin elementləri (intonasiya, sürət və s.) ifadəliliyin hərəkət vasitələri (mimika, jest), həmçinin nitq ünsiyyəti mədəniyyətinin elementləri (nitqin ümumi tonallığı, danışarkən duruş vəziyyəti və hərəkət vərdişləri) daxildir» (Məmmədova, 2019: 32).

Danışarkən sözü axıradək tələffüz etməmək, səs, heca buraxmaq, səs, heca artırmaq, bir səsi başqası ilə əvəz etmək, sözlərin yerini dəyişik salmaq, yerli şivə xüsusiyyətlərinə yol vermək bu dövr üçün xarakterikdir. Belə nöqsanlar uşaqların oxu texnikasına yiyələnmələrinə mane olur və yazıda da əksini tapır. Ona görə də müəllim uşaqların tələffüzünə müntəzəm nəzarət etməli, düzgün tələffüz nümunəsi verməklə onların aradan qaldırılmasına nail olmalıdır.

Ən zəruri hallarda uşağın loqopedə göstərilməsi təmin edilməlidir. Səslərin təhrif olunması çox vaxt onların aydın qavranılmaması ilə bağlıdır. Səslənmə etibarilə yaxın olan *s-ş, ş-y, s-z, ç-c, q-ğ, r-l, d-t, b-p* və s. səslərin hecalarda cüt-cüt tələffüzünü tələb etmək lazımdır. Belə səslərin fərqləndirilməsinə sözlərin səs təhlili prosesində nail olmaq mümkündür. Savad təlimi dövründə uşaqların lüğət ehtiyatının zənginləşdirilməsi əlifba dərsliyinin sütunlarında verilmiş sözlərlə başlanır. Sütunlar və mətnin lüğəti uşağın həyatı, ətraf aləm haqqında rəngarəng sözlərlə zəngindir. Sütunlardakı sözlər bəzən çox müxtəlif sahələrə aid olduğu üçün mənası uşaqlar tərəfindən düzgün qavranılmır. Müəllim belə sözlərin səs-hərf təhlilini aparmalı, kəsmə əlifbanın köməyilə düzüm lövhəsində düzdürməlidir (Kərimov, 1967: 56).

Savad təliminə hazırlıq nitq inkişafı ilə yanaşı, uşaqların oxu və yazı təliminə hazırlanmasını ön plana çəkməyi tələb edir.

Məktəbəhazırlıq qrupunun ana dili üzrə məktəbə hazırlanması uşaqları oxu təliminə hazırlanma zərurətini irəli sürür. Bu proqram tələbinin yerinə yetirilməsi tərbiyəçidən savad təliminin (oxu, yazı, nitq inkişafı, kaliqrafiya) incəliklərinə bələd olmağı tələb edir. Beləliklə, dördüncü yaşdan beşinci yaşadək əsasən savad təliminə hazırlıq işi gedirsə, beşinci yaşdan əlifba təliminə hazırlıq üzrə iş gedir.

Məktəbəqədər dövrdə oxu təliminə iki cür yanaşmaq mümkündür:

1) səsləri və onları ifadə edən hərfləri eyni vaxtda öyrənməklə qısa müddətdə uşaqlara sadə hecalarla oxu vərdişi aşılamaq;

2) uşaqlara dil gerçəkliklərini – sonralar məktəbdə fonetika və morfologiya məşğələlərində öyrədiləcək gerçəklikləri mənimsədikdən sonra təmiz praktik vəzifənin yerinə yetirilməsinə, yəni oxumaq vərdişinin öyrədilməsinə başlamaq (Baxışova, 2011: 98).

Savad təlimi nitq inkişafı proqramının bir hissəsi olduğundan, ikinci yola üstünlüyün verilməsi təbiidir. Bu zaman əsas diqqət bütövlükdə uşaqların dil inkişafı prosesinə, onlarda nitq fəaliyyətinə yeni münasibətin formalaşmasına yönəlir. Uşaqlar əqli fəaliyyətin mürəkkəb formasını öyrənirlər.

Sözdən nitq səsinin ayrılması üzrə ilk əməliyyatlar uşaqların sözə münasibətini dəyişir. Onlar diqqəti sözün mənasından onun formal cəhətinə – səs tərkibinə keçirlər. D. B. Elkonin bununla oxu təliminin əsas məzmununu – dili səs materiyasından ayırmışdır. Onun metodu üzrə oxu təlimi prosesi bir-biri ilə qarşılıqlı əlaqədə olan üç mərhələdən ibarətdir:

*Birinci mərhələ* – sözlərin səs təhlilinin formalaşması və dilin fonem (səs) sisteminə ümumi bələdləşmə mərhələsidir.

*İkinci mərhələ* – sait fonemlər sisteminin mənimsənilməsi, onların hərflərlə ifadə olunması, sait hərflərə və fonemlərə ümumi bələdləşmə mərhələsidir.

*Üçüncü mərhələ* – samit fonemlər sisteminin mənimsənilməsi, onların hərflərlə ifadəsi və oxunun əsas mexanizminin mənimsənilməsi mərhələsidir.

Birinci mərhələ nəinki savad təliminin öyrədilməsi və məktəb təlimi, həmçinin bütövlükdə uşağın əqli inkişafı üçün fövqəladə əhəmiyyətə malikdir.

Uşaq bağçası şəraitində uşaq körpəlik dövründən ana dilindən praktik şəkildə istifadə etməyə başlayır, lakin o, nitqin köməyi ilə həyata keçirdiyi qaydaları dərk etmir. Oxu texnikasına yiyələnməyin ilk addımları sxemlər və kartoçkalarda oyun xarakterli məşqlər hesab olunur (Məmmədova, 2007: 134). Tərbiyəçi cümlələri, sözləri, hecaları və səsləri ifadə edən sxemlərlə uşaqları tanış etməlidir. Onlar bilməlidirlər ki, cümlədəki bitmiş fikir sözlərin düzgün sıralanması ilə bildirilir. Ona görə də cümlədə neçə söz varsa, onun sxemində o qədər də sözü əks etdirən işarə olur. Onlar öyrənirlər ki, sözü hecalara bölmək mümkündür. Hecalar da hərflərə bölünür: Məs.: “Arzu oynayır” cümləsinin sxemi belədir:



Bu sxemlər üzrə müəyyən vərdişlər qazandıqdan sonra uşaqlar uzanan və uzanmayan səslərlə tanış olurlar. Beləliklə, onlar sözün hecalara ayrılmasına, saitlərin rolu haqqında praktik məlumata yiyələnirlər. Onlar öyrənirlər ki, sözdə neçə sait varsa, o qədər də heca olur.

Məktəbəqədər dövrdə uşaqların yazıya hazırlanmaları da xüsusi diqqət və səy tələb edir. Səliqəli, gözəl yazı vərdişinə yiyələnmək üçün əlin yazıya hazırlanması vacibdir. Uşağın əsl mənada yazıya başlaması onun yazı ləvazimatı ilə tanışlığı və onlardan istifadə edə bilməsi ilə bağlıdır. Uşaq dəftər, sətir xətti, karandaş, qələm, onu tutmaq qaydası ilə tanış olmalıdır. Yazarkən dəftərin aşağı sol küncünü döşün ortasına yönəltməyi, sağ əllə qələm tutmağı, qələmin ucu ilə barmaqlar arasında 2 sm məsafə saxlamağı, sol əllə dəftəri tutmağı, sağ qolun dirsəyini stolun kənarından azacıq çıxarmağı, döşü stola dayamamağı, çiyinləri dik tutmağı, başı azacıq aşağı əyməyi, gözlə dəftər arasında 20-25 sm məsafə saxlamağı öyrətmək vacibdir.

Oxu və yazıya belə hazırlıq sonralar uşaqların ilkin oxu və yazı texnikasına asanlıqla yiyələnmələrinə imkan verir.

Uşaq bağçasında uşaqlar hecalarla dəqiqədə 10-15 söz sürətilə oxumağı öyrənməlidirlər. Belə vərdiş olmadıqda, I sinifdə oxu texnikasına yiyələnmək çətinləşir və uşaqlar dəqiqədə 40-45 söz sürətilə bütöv sözlərlə oxuya bilmirlər. Onlar bütün diqqətini oxu texnikasına – səsləri hecalarda, hecaları sözdə birləşdirməyə yönəldirlər. Nəticədə, oxunun şüurluluğu və ifadəliliyi təmin edilmir. Oxunun sürəti aşağı olduqda, uşaqlar yuxarı siniflərdə ev tapşırıqlarını da yerinə yetirə bilmirlər.

Ona görə də əlifba təliminin ilk günlərindən uşaqlarda öyrənilmiş hərflər dairəsində hecadan bərabər “oxu sahəsi” yaradılmalıdır. Hər bir yeni səs heca tərkibində xüsusi vurğu və ya uzun tələffüzlə fərqləndirilməlidir.

Sözləri hecalara ayırarkən bir neçə priyomdan istifadə etmək olar:

1) biləyi çənənin altına qoyub, alt çənənin neçə dəfə aşağı düşüb-qalxması ilə hecanın sayını müəyyənləşdirmək;
2) sözdəki hər hecanı tələffüz edərkən bir barmağı qatlamaq;
3) hər hecanı tələffüz etdikdə əl çalmaq;
4) nazik zolaqlar şəklində kəsilmiş kağızı ağızın qarşısında tutub, sözü tələffüz edərkən zolaqların neçə dəfə yellənməsinə fikir vermək;
5) hər hecanı tələffüz etdikdə əli yavaşca partaya vurmaq (Kərimov, 1967: 69).

## Nəticə

Savad təlimi dövründə oxu və yazı texnikası üzrə məşğələlərin cansıxıcı xarakter daşımasının qarşısını almaq məqsədilə uşaqları məktəbəqədərki oyun və əyləncə aləmindən ayırmamaq lazımdır. Hər beş-on dəqiqədən bir yumoristik əhvalat, lətifə danışmaq, tapmaca, yanıltmac, oyun-nəğmələr, kiçikhəcmli şeir, hekayə, təmsil və nağılların oxunması uşaqların yorğunluğunu aradan qaldırır, marağını artırır, diqqətini daim oyaq saxlayır. Uşaqlarla dialoqa geniş yer vermək, suala cavab vermək, dialoqa qoşulmaq bacarığını inkişaf etdirmək lazımdır (Cəfərova, Əhmədova, Rəhimova, 2011: 19; 8). Bu məqsədlə seriya-süjetli şəkillərdən, uşaqların ekskursiya, gəzinti, oyun və əyləncələrdə gördüklərindən istifadə etmək mümkündür.

Altıyaşlıların təliminin müvəffəqiyyətli və cəlbedici olması üçün düşündürücü və inkişafetdirici oyunlardan istifadə olunmalıdır. Uşaqlar oyun zamanı sərbəst olur, yeniliyi asanlıqla qavraya bilirlər. Oyun zamanı uşağın təfəkkürü, yaddaşı, müşahidəçilik qabiliyyəti, diqqəti daha asanlıqla inkişaf edir.

Tərbiyəçi hər bir məşğələyə vaxtında hazırlaşmalı, üzərində iş aparılacaq materialı diqqətlə seçməli, məşğələdə istifadə ediləcək iş formalarını, metod və priyomları müəyyənləşdirməlidir. O çalışmalıdır ki, təlim yükü uşaqların idrak imkanlarından nə ağır, nə də yüngül olsun. Nitq inkişafı üzrə iş uşaqların fiziki imkanlarına müvafiq olmaqla, onların fikir və fəaliyyətini hərəkətə gətirməli, təfəkkürünü, yaddaşını inkişaf etdirməli, müqayisəetmə, ümumiləşdirmə, əqli nəticəyə gəlmə bacarıqlarına yiyələnməsini təmin etməlidir. Bütün bunlara nail olmaq üçün nitq inkişafı üzrə iş birtərəfli deyil, kompleks şəkildə aparılmalıdır. Bu dövrdə uşaqların nitqi elə inkişaf etdirilməlidir ki, sərbəst, düzgün, sürətli, ifadəli, şüurlu, qrammatik-orfoepik, leksik çalışmaları yerinə yetirməyə, gördükləri, eşitdikləri, yerinə yetirdikləri haqqında müstəqil formada kiçik həcmli hekayələr qurub danışmağa hazır olsunlar.

## Ədəbiyyat

1. Kərimov, Y. Ş. (1997). Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası. Bakı, 218 s.
2. Kərimov, Y. Ş. (2002). Uşaq məktəbə gedir. Bakı, 144 s.
3. Məmmədova, Y. X. (2019). Məktəbəqədər yaşlı uşaqların nitqinin inkişaf etdirilməsinin məzmunu və yolları. Bakı: ADPU, 260 s.
4. Kərimov, Y. Ş. (1967). Uşaq bağçasında savad təlimi. Bakı, 74 s.
5. Baxışova, S. A. (2011). Məktəbəqədər təhsil müəssisələrində uşaqların nitq inkişafı. Bakı, 165 s.
6. Məmmədova, A. M. (2007). Uşaq bağçasında beşyaşlıların məktəbə hazırlanması. Bakı: ADPU, 160 s.
7. Cəfərova, L., Əhmədova, A., Rəhimova, S. (2011). Müasir uşaq bağçalarında təlimin təşkili. Bakı, 86 s.
8. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı. (2007, 12 aprel). Bakı.

Göndərilib: 28.04.2024 Qəbul edilib: 09.06.2024